PERSİ CEKSON & OLİMPLİLƏR

V KİTAB

# PERSİ CEKSON VƏ SONUNCU OLİMPLİ

RİK RİORDAN

Tərcüməçi:
Zülfiyyə Abdulla

qanun nəşriyyatı

PERCY JACKSON & THE OLYMPIANS

BOOK FIVE

# PERCY JACKSON & THE LAST OLYMPIAN

RICK RIORDAN

Olimp təhlükə altındadır! Böyük bir titan ordusu toplayan Kronos, Olimpi ələ keçirmək və məhv etmək istəyir. Planını dəqiq həyata keçirmək üçün Titan diqqəti yayındırır və Tifonu azad edir. Aldadılmış tanrılar məskənlərini müdafiəsiz qoyaraq bu dəhşətli canavarla döyüşə girirlər. Ancaq Persi Cekson Kronosun hərbi hiyləsini görən yeganə insandır. Yarımqan dostları ilə birlikdə Olimpi müdafiə edir. Yırtıcıların hücumlarını dəf edə biləcəklərmi, xeyirin qələbəsi ilə bitəcəyinə ümid etmək olar...

**Rick Riordan**
**PERCY JACKSON & THE LAST OLYMPIAN**
**Rik Riordan**
**PERSİ CEKSON VƏ SONUNCU OLİMPLİ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 392 səh.

Ölçü: 130x200 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 20.01.2023

| | |
|---|---|
| Tərcüməçi: | Zülfiyyə Abdulla |
| Redaktor: | Hədiyyə Şəfaqət |
| Korrektorlar: | Ülviyyə Emin, Bəsti Məmmədova |
| Texniki redaktor: | Xəyalə Şirinova |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-492-5

© Qanun Nəşriyyatı, 2023
© Rick Riordan, 2009

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## Birinci fəsil
## **Partlayışlı səyahət**

Dünyanın sonu maşınımın üstünə peqasın enməsi ilə başladı.

O ana qədər vaxtımı əla keçirirdim. Əslində sükan arxasına keçməməliydim, çünki on altı yaşım hələ bir həftədən sonra tamam olacaqdı, lakin anamla atalığım Pol, rəfiqəm Reyçellə məni Sout-Şorada özəl çimərliyə gətirmişdilər, Pol bizə onun "Toyota prius"u ilə gəzməyə icazə vermişdi.

Yəqin ağlınıza "bu Persi Cekson nə məsuliyyətsiz tipdir" və sair bu kimi fikirlər gəlir. Lakin Pol məni əla tanıyır. Əcinnələri iki yerə bölüb, yanan məktəbin pəncərəsindən tullandığımı görmüşdü, yəqin ona görə fikirləşirdi ki, maşını ilə iki-üç yüz yard gəzməyimin böyük bir ziyanı dəyməz.

Qısası, Reyçellə maşına mindik. İsti avqust günüydü. Reyçel kürən saçlarını quyruq kimi toplamışdı, çimərlik paltarının üstündən isə ağ köynək geyinmişdi. Onu həmişə köhnə futbolka və boya ilə çirklənmiş cinsdə görürdüm, ona görə də indi… lap yüz milyon qızıl drahmlıq görünürdü.

– Bax, orada saxla, – o dedi.

Biz Atlantikaya gözəl mənzərəsi olan sahildə dayandıq. Dəniz mənim dünyada ən sevdiyim yerlərdən biridir, bu gün isə

bura lap gözəl idi: suyun bərq vuran firuzəyi üzü şüşə kimiydi, elə bil atam okeanı bizim üçün hamarlamışdı.

Yeri gəlmişkən, atamın adı Poseydondur, özü də belə işlərdə peşəkardır.

– Hə, – Reyçel gülümsədi. – Dəvət məsələsinə nə deyirsən?

– Hə…

Üzümdə canlı maraq ifadəsi yaratmağa çalışdım. İş ondadır ki, o, mən üç günlük ailəsinin Sent-Tomasdakı bağ evinə dəvət etmişdi. Belə dəvətləri tez-tez almırdım. Bizim ailənin istirahət günləri üçün planı adətən Lonq-Aylenddə köhnə bir daxma tutub, film-kirayədən bir neçə film götürmək və iki-üç dondurulmuş pizza almaqdan ibarət olurdu. İndi isə Reyçelin valideynləri məni Karib adalarında qəbul etməyə hazır idilər.

Əslində özümü toplamağa ehtiyacım vardı. Keçən yay həyatımın ən ağır tətili olmuşdu, bir neçə gün dincəlmək mənə mane olmazdı.

Digər tərəfdən isə indi hər dəqiqə vacib bir hadisə baş verə bilərdi. Məni hər an çağıra bilərdilər. Ən pisi isə o idi ki, gələn həftə on altı yaşım tamam olacaqdı, qorxulu öncəgörmə isə ağlımdan çıxmırdı: on altı yaşım tamam olanda dəhşətli bir şey baş verəcəkdi.

– Persi, – Reyçel davam etdi, – bilirəm ki, heç münasib vaxt deyil. Amma sənin münasib vaxtın heç vaxt olmur axı.

Keçərli səbəb idi.

– Doğrudan da gəlməyi çox istəyirəm, – dedim. – Sadəcə…

– Müharibə.

Başımla təsdiq etdim. Bu barədə danışmağı sevmirdim, lakin Reyçel hər şeyi bilirdi. Fanilərin çoxundan fərqli olaraq o, Dumanın – reallıqları adi insanların gözündən gizlədən pərdə-

nin – arxasını görə bilirdi. O, əcinnələri görürdü. Titanlara qarşı və onların tərəfində vuruşan yarımqanlarla da qarşılaşmışdı. Xırda tikələrə parçalanmış Kronosun yeni dəhşətli cildində tabutundan qalxdığı anın şahidi olmuşdu. O vaxt göy rəngli plastmas darağı ilə onun gözündən vurmaqla mənə böyük yaxşılıq etmişdi.

Reyçel ovcunu əlimin üstünə qoydu.

– Bir də fikirləş, yaxşımı? İki gündən sonra gedirik. Atam… – o, bir qədər tərəddüd etdi.

– Nədir, yaşamağa qoymur səni? – mən soruşdum.

– Mənimlə çox mehriban olmağa çalışır, bu isə ən betəridir. – Reyçel ikrahla başını silkələdi. – Payızda Klarion qadın akademiyasına qəbul olunmağımı istəyir.

– Ananın oxuduğu məktəbdir?

– Nyu-Hempşirdə varlı qızlar üçün pansion-məktəbdir. Heç məni pansion-məktəbdə təsəvvür edirsənmi?

Bunun həqiqətən də axmaq fikir olduğu ilə razılaşdım. Reyçel müxtəlif şəhər incəsənət layihələrində iştirak edir, evsizləri yedirdir, "Kökü kəsilməkdə olan sarıqarın körpə ağacdələnləri xilas edək" şüarıyla etiraz yürüşlərində və başqa bu kimi tədbirlərdə iştirak edirdi. Heç vaxt əynində don görməmişdim, onu nəzakətli qızlarla birlikdə pansionda təsəvvür etmək isə, ümumiyyətlə mümkün deyildi.

Reyçel köks ötürdü.

– Fikirləşir ki, nazımla oynasa, özümü günahkar hiss edib, təslim olacağam.

– Ona görə məni dəvət etməyinə icazə verib?

– Hə… amma razılaşsan mənə çox böyük yaxşılıq etmiş olarsan, Persi. Bizimlə getsəydin, hər şey daha yaxşı olardı. Bir

də, səninlə bir məsələ barədə danışmaq istəyirəm… – Reyçel qəfildən susdu.

– Mənimlə nəsə danışmaq istəyirsən? – deyə soruşdum. – Yəni deyirsən o qədər ciddidir ki, bu söhbət üçün Sent-Tomasa getməliyik?

Reyçel dodaqlarını büzdü.

– Qulaq as, hələlik bu məsələni… unut. Gəl özümüzü elə aparaq ki, guya tam adi insanlarıq. Maşınla gəzməyə çıxmışıq, okeana baxırıq, bir yerdə olmaq bizə xoşdur.

Görürdüm ki, ona əzab verən nəsə var. Lakin Reyçel mənə cəsurluqla dolu bir təbəssüm bəxş etdi. Saçları günəş şüaları altında sanki od tutub yanırdı.

Bu yay birlikdə çox vaxt keçirmişdik. Əslində, əvvəldən belə bir planım yox idi amma düşərgədə vəziyyət gərginləşdikcə Reyçelə zəng edib, dərindən nəfəs almaq üçün bir müddətlik aradan çıxmağa daha çox ehtiyacım olurdu. Fanilər dünyasının yaxında olduğuna, orada mənə hazır boks torbası kimi baxan əcinnələrin yaşamadığına özümü inandırmaq mənim üçün şərt idi.

– Yaxşı, – dedim. – Adi gün və iki adi insan.

Reyçel başını yellətdi.

– Ona görə də… fərziyyəyə əsaslanaraq bu iki nəfərin bir-birlərini bəyəndiklərini düşünsək, onda niyə bu axmaq oğlan qızı öpmür?

– O-o… – özümü Apollonun inəklərindən biri kimi hiss etdim, yəni yöndəmsiz, küt və xəcalətdən qıpqırmızı. – Hm…

Özümü elə aparmayacağam ki, guya Reyçel barədə düşünmürdüm. Onunla münasibət qurmaq daha asan idi… yəni tanıdığım başqa qızlara nisbətən.

Onun yanında dəridən-qabıqdan çıxmağa, sözlərimə fikir verməyə ya da nə düşündüyünü anlamaq üçün baş sındırma-

ğa ehtiyac yox idi. Reyçel heç nə gizlətmirdi. Hər şeyi birbaşa deyirdi.

Heç bilmirəm o anda nə edərdim... amma elə çaşmışdım ki, qara, nəhəng canlının səmadan enib, dörd ayağı ilə birdən qulaqbatırıcı tappıltı və cırıltı ilə "tayota"nın kapotuna necə düşdüyünü heç hiss etmədim də.

"Salam, boss", – beynimdə səsləndi. – "Yaxşı maşındır".

Adı Pirat olan bu peqas mənim köhnə dostum idi, ona görə də kapotu əzməyi qanımı o qədər də qaraltmadı.

Amma öz-özümə düşündüm ki, Pol Blofis bu əziklərdən yəqin məmnun qalmayacaq.

– Pirat, – mən köks ötürdüm, – sən niyə...

Bu zaman onun belində oturanı gördüm və günümün əvvəldən düşündüyümdən daha çətin keçəcəyini başa düşdüm.

– Salam, Persi.

Hefestin evinin başçısı olan Çarlz Bekendorf əcinnələr üzrə peşəkar idi. Əcinnələr onu görəndə "anacan!" deyə qışqıraraq, qaçışırdılar. Yekəpər afroamerikalı Bekendorf iri əzələlərini hər yay dəmirçixanada bir az da şişirdirdi. Məndən iki yaş böyük idi, özü də düşərgədə ən yaxşı zireh ustasıydı. Bundan başqa müxtəlif tərzdə ciddi mexaniki əşyalar da hazırlayırdı. Bir ay əvvəl əcinnələri daşıyan avtobusun ayaqyoluna yunan alovundan hazırlanmış bomba atmışdı. Elə birinci harpiya ayaqyoluna girib, suyu çəkən kimi Kronosa hədiyyə gedən bir sürü qəddar məxluq havaya uçmuşdu.

Bekendorfun əynində hərbi geyim vardı – bürünc sinəbənd və dəbilqə, kamuflyaj şalvar. Böyründən qılınc, çiynindən isə partlayıcı ilə dolu torba sallanırdı.

– Vaxt çatıb? – mən soruşdum.

O, tutqun halda başı ilə təsdiq etdi.

Qəhər məni boğdu. Bunun qaçılmaz olduğunu bilirdim. Fəaliyyət planımızı həftələrlə müzakirə etmişdik, amma gizlində yenə də bunun baş verməyəcəyinə ümid edirdim.

– Salam, – Reyçel Bekendorfa baxaraq dedi.

– Salam. Adım Bekendorfdur. Sən də yəqin Reyçelsən. Persi mənə danışıb... yəni adını ondan eşitmişəm.

Reyçel qaşını qaldırdı.

– Doğrudan? Əla. Deməli, düz başa düşürəmsə, indi dünyanı xilas etməyə getməlisiniz, hə, uşaqlar?

– Elədir ki var, – Bekendorf təsdiq etdi.

Mən çarəsiz baxışlarla Reyçelə baxdım:

– Anama deyərsən?

– Hə, deyərəm. Yəqin bu cür işlərə vərdiş edib. Kapot məsələsini də Pola başa salaram.

Polun bir də heç vaxt mənə maşınını verməyəcəyini güman edərək, minnətdarlıqla başımı yellədim.

– Uğurlar! – Reyçel bunu deyib məni elə öpdü ki, gözümü qırpmağa belə macal tapmadım. – Yolun açıq olsun, yarımqan. Mənim yerimə də bir neçə əcinnə öldür.

Sonuncu dəfə ona nəzər saldım: Qollarını sinəsində çarpazlayıb, qabaq sərnişin oturacağında əyləşmişdi, get-gedə yüksələrək Bekendorfla məni səmaya doğru qaldıran Pirata baxırdı. Öz-özümə elə hey Reyçelin mənimlə nə barədə danışmaq istədiyini fikirləşirdim. Görəsən bunu nə vaxtsa öyrənə biləcəkdimmi?

– Hə, – Bekendorf dilləndi, – belə başa düşürəm ki, bu səhnəni Annabetə təsvir etməyimi istəməzsən.

– Aman tanrı, – mən mırıldandım. – Bunu heç ağlına da gətirmə.

Bekendorf fısıldadı. Atlantikanın üstü ilə uçmağa başladıq.

Hədəfimiz gözə dəyməyə başlayanda hava demək olar, qaralmışdı. Sarı və ağ işıqlara qərq olmuş nəhəng səyahət gəmisi "Şahzadə Andromeda" üfüqdə bərq vururdu. Gəmi uzaqdan titanlar hökmdarının qərargahı kimi yox, adi sərnişin gəmisi kimi görünürdü. Yaxınlaşdıqca burnundakı nəhəng fiqur – əynində yunan xitonu olan, zəncirə vurulmuş qara saçlı qız görünməyə başladı. Üzündə dəhşət ifadəsi donub qalmışdı. Sanki kürəyinin arxasındakı, məcburən dözməli olduğu əcinnələrin bütün bədxahlıqlarını hiss edirdi.

Yenidən bu gəmini görəndə içimə soyuq ürpərti doldu. "Şahzadə Andromeda"nın göyərtəsində iki dəfə az qala ölmüşdüm, indi isə gəmi bir başa Nyu-Yorka tərəf gedirdi.

– Nə etməli olduğunu xatırlayırsanmı? – Bekendorf küləyin səsini batırmaq üçün yüksək səslə soruşdu.

Başımla təsdiqlədim. Nyu-York limanındakı sahibsiz gəmilərdən təlim sahəsi kimi istifadə edərək boş bombalarla məşq etmişdik. Nə qədər az vaxtımız olacağını bilirdim. Kronosun hücumunun qarşısını almaq üçün başqa fürsətimiz olmayacağını da bilirdim.

– Pirat, – mən göstəriş verdim, – bizi ən aşağıdakı arxa göyərtəyə endir.

"Anladım, boss", – Pirat cavab verdi. – "Of, bu gəmini heç sevmirəm də!"

Üç il əvvəl Pirat "Şahzadə Andromeda"nın göyərtəsində əsir idi, ancaq dostlarımla mən ona bir balaca kömək etdikdən sonra qaçmağa nail olmuşdu. Məncə, yenidən bu gəminin göyərtəsinə enməkdənsə, yalının "Mənim Balaca Ponim"[1] kimi daranmağına razı olardı.

[1] Məşhur oyuncaq və cizgi film qəhrəmanı – yalı daranmış qəşəng poni

– Bizi gözləmə, – ona dedim.

"Rəis, axı..."

– İnan mənə, – özümüz oradan qurtulacağıq.

Pirat qanadlarını bağlayıb qara rəngli kometa kimi gəmiyə endi. Külək qulaqlarımda vıyıldayırdı. Gəminin yuxarı göyərtəsinə keşik çəkən əcinnələr gördüm: dişi əjdahalar yaxud ilan-qadınlar, cəhənnəm tazıları, nəhənglər və insanabənzər dəniz əcinnələri – telhin adlanan yarı insan, yarı dəniz aslanı olan məxluqlar. Yanlarından elə sürətlə keçdik ki, heç kim həyəcan siqnalı qaldırmadı. Gəminin arxasına yaxınlaşdıq, Pirat qanadlarını açıb, yavaşca bizi göyərtəyə endirdi. Mən təzə başlayan ürəkbulanmamı boğmağa çalışaraq onun belindən yerə tullandım.

"Uğurlar, boss", – Pirat dedi. – "Diqqətli ol ki, səni atlara yem etməsinlər!"

Köhnə dostum bu sözləri deyib gecənin qaranlığında qeyb oldu. Cibimdəki avtoqələmi götürüb, qapağını çıxardım və Anakluzmosum böyüyüb, öz ölçüsünü aldı – səma bürüncündən olan bir metrlik ölümcül qılınca çevrildi.

Bekendorf cibindən bir parça kağız çıxartdı. Əvvəl bunun xəritə, ya da ona bənzər başqa bir şey olduğunu düşündüm, amma sonra şəkil olduğunu başa düşdüm. Yarıqaranlıqda şəklə baxmağa başladı. Bu, Afroditanın qızı Silena Borqrardın şəkli idi. Keçən yaydan görüşməyə başlamışdılar, amma əvvəllər də hamı onlara deyirdi: "Özünü gicliyə qoymayın, bir-birinizi bəyənirsiniz axı". İndi, çox ağır bir tapşırığa yollananda belə, Bekendorf heç vaxt olmadığı qədər xoşbəxt görünürdü.

– Düşərgəyə mütləq qayıdacağıq, – ona dedim.

Gözlərində təşviş göründü, amma sonra əminliklə gülümsəyib, şəkli gizlətdi.